**Seminarda iştiraka dair**

**Hesabat**

28 sentyabr 2005-ci il tarixdə Azərbaycan Respublikasının Auditorlar Palatasında «Qeyri-hökumət təşkilatlarında audit aparılması» mövzusunda seminar keçirildi.

Seminarda Auditorlar Palatasının əməkdaşları, auditorlar, qeyri-şökümət təşkilatlarının nümayəndələri iştirak etdilər.

Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov mövzu ilə əlaqədar məruzə etdi.

Seminarda qeyri hökumət təşkilatlarının yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi, bank və kassa əməliyyatlarının, hesablaşma və kredit əməliyyatlarının auditi, əsas vəsaitlərin, qeyri-maddi aktivlərin və mal material dəyərlərinin, xərclərin və maya dəyərinin auditi, kapital qoyuluşları, qiymətli kağızlar və investisiyalar, mühasibat uçotunun vəziyyətinin təhlili ilə bağlı müzakirələr aparıldı, qeyd edilən işlərin həyata keçirilməsinin səmərəliliyinin artırılması üçün təkliflər verildi.

«İctimai maraqların qorunması və hüquq
məsləhət mərkəzinin» hüquqşünası

Nazim Quliyev